# Tənqidçinin Azərbaycançılıq həqiqətləri

## *yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri*



*Əli Rza XƏLƏFLİ*

*(Əvvəli ötən saylarımızda)*

Monoqrafiyada oxuyuruq: *"El-oba camaatı silahlarını bir-birinə tuşlasa da bir-birini əzmək, məhv etmək istəyində deyil"*. Nəhayət, ikinci fəsil başa çatır; *"Qarlı aşırım"* romanının içindən keçən işıq tədqiqatçının dediyi kimi, sarsıntıdan doğan işıq insanı - insanları birliyə çağırır. *"Cismən yadlaşmış insanlar ruhən birləşmək"*dədir. Bu birləşmənin özü işıq yaradır; və bu fonda professor Təyyar Salamoğlunun sözləri daha aydın dərk olunur: *"Təhtəlşüur olsa da, insanlar düşməni öz içərilərində axtarmağın mənasızlığını başa düşür, yadelli düşmənin gücü qarşısında geri çəkilməyi çıxış yolu kimi seçirlər. Bu isə onları parçalanmaq təhlükəsindən qoruyur, birləşdirir, bütövləşdirir"* **(səh. 39).** Əslində, bu birlik və bütövlük yollarının elə bu gün də davam edən inadlı axtarışlarının ziddiyyətlər, toqquşmalar dövründəki başlanğıcıdır.

Tarixin açdığı yaraları sağaltmağın, eləcə də indiki qarışıq dünyada yaşadığımızı nəzərə alsaq, həm də deməliyik ki, gələcək tarixin aça biləcəyi yaraların qarşısını almağın çıxış yolu böyük Azərbaycan adlı Vətənin sərhədlərini bərpadan əvvəl bu böyüklük, bütövlük millətin mənəvi mühitində, milli ruhunda təmin olunmalıdır. Tədqiqat açıq-aşkar diqtə edir; Vətənin böyüklüyü, toxunulmazlığı millətin bütövlüyündən, milli ruhun mübarizliyindən, canlılığından keçir. Azərbaycan çoxsaylı xalqlar sırasındadır. Onun milli birliyi əks qüvvələr üçün qorxu və təhlükə kimi qavranılıb. Türkmənçay müqaviləsi bu qorxuya görə bağlanıb. Həmin səbəblər Pişəvəri hökumətini məhv edib. 90-cı illərin hadisələri - Şimali Azərbaycanı bir neçə yerə parçalamaq cəhdləri də bizim milli ruhumuzu cismən (və qeyri-cismən) bir dəfəlik məhv etmək istəyi ilə bağlıdı. Görünür, Təyyar Salamoğlu birdəfəlik doğru deyib: *«Milli xarakter ölümə məhkum ola bilməz»*.

Bir vaxt yazmışdım: Kəndimizdə bir kişi vardı. Bu, hər cür haqsızlığa direniş göstərəcək gücdə olan milli ruh idi. Hamını, hər kəsi bir araya gətirən, kimsəni təklənməyə qoymayan, birlik və bütövlük daşıyıcısı milli ruh. Əslində, Salamoğlunun tərənnüm obrazı da elə birliyin, bütövlüyün daşıyıcısı, eyni zamanda təminatçısı milli ruhdur.

### MİFDSSN GSSLSSN HSSQİQSSTLSSR

Təyyar Salamoğlu trilogiyasının əsas obrazı millətin varlığını təmin edən milli ruhdur. Tədqiqatın üçüncü fəsli *"Qarlı aşırım"*da epos ənənələri, yaxud *"Eposdan romana doğru"* adlanır. Əslində, bu fəsil əsərin tədqiq obyektinin mahiyyətilə nə qədər bağlıdırsa, bir o qədər də müstəqil bir əsərdir. Mifin həyata müdaxiləsi, mifin yazıda yaşamaq gücü, ən başlıcası, mifik düşüncənin ölməzliyi, formasını, təzahür imkanlarını dəyişərək yaşarılıq alması kimi məsələlər araşdırılır. Ən azı min il əvvəlin düşüncə, davranış elementlərinin müasir insanda təzahürü onun müasir insanın köhnəliyi, avamlığı, geri qalmışlığı yox, zənginlik, saflıq, bütövlük, xarakter kamilliyi göstəricisidir. Bəri başdan deyim ki, tədqiqatın bu hissəsi xüsusi həyəcanla, ruhi-mənəvi doğmalıqla könül atlandıran, oxucunun sinəsində qabarma və çəkilmələrlə müşayiət olunan duyğu savaşları, kədərin və sevincin qovuşduğu bir hiss ilə oxunur.

Salamoğlu bir tədqiqatçı kimi romanistdir, roman tədqiqatçısıdır. Azərbaycan və dünya romanının bəzən sərhədsizliyəcən açılan, bəzən məhdud düşüncə imkanlarınacan daralan əhatəsini yaxşı bilir. Romanı xüsusi bir forma kimi - dünya modeli kimi qavramaq onun sərbəst düşüncə imkanlarını da artırır. Bəlkə də, bu cür yanaşmanın özü də onun tədqiqatına təkcə elmi genişlik və dərinlik bəxş etmir, həm də xüsusi hissi-psixoloji ovqat da əlavə edir. Bu da tədqiqatın oxunaqlılığı daha da artırır, oxucunun mütaliə ovqatını səfərbər edir. Sanki onu xüsusi bir nəzarətdə saxlayır. Səhifələr çevrildikcə həyəcanlar artır, oxucu qədim epos, orta əsrlər dastanı və nəhayət, müasir roman aləmindən keçir.

Yaşamağın acılarla müşayiət olunan şirinliyi, həyatın dəyəri haqqında bəzən aydın, birmənalı, bəzən də ziddiyyətli fikir axınları, qənaətləri tükənməz estetik zövq bəxş edir. Hətta əsər sona yaxınlaşdıqca Beyrəyin, Abasqulu bəyin, Xəlilin, Oğuz qəbirlərində yatanların, adlı atların... dirilib qayıtdığına, səhifənin harasındasa bizi gözlədiyinə də inamlı olursan... Bininci şərt oxudur. Nə yaxşı ki, dünyamızda hələ ki, oxu qalır, yoxsa bu qədər sonsuz estetik zövq ünvanına çatmadan ölüb gedərdi.

İndi mətləbə qayıdaq. Təyyar Salamoğlu üçün romanın taleyi ümumbəşəri taledir. Romana müxtəlif ziddiyyətli baxışlara, yanaşmalara baxmayaraq onun özünün münasibəti çox nikbindir: *"Bu gün "Azərbaycan romanı" problemi daha çox mübahisə predmetinə çevrilir. Azərbaycan romanına "yox" deyənlər onun yoxluğu ilə bağlı əsaslı bir arqument irəli sürə bilmirlər. Bunun əksinə olaraq tənqidi ədəbiyyatda Azərbaycan romanının "milli obrazı"nı yaradan və yarada biləcək həlledici şərtlərlə bağlı kifayət qədər dərinə işləyən məntiqli, elmi əsaslara söykənən mülahizələr də səslənməkdədir. Bu sırada, fikrimizcə, professor N.Cəfərovun bir tezisini xüsusi şəkildə fərqləndirmək mümkündür: "Azərbaycan romanı eposdan gəlməlidir. Milli mənbə eposdur". Milli mənbəyə istinad mənasında o, "Şamo"nun, daha çox isə "Dəli Kür"ün üstündə dayanır. Hiss olunur ki, tənqidçi "nəhəng Cahandar ağa" obrazında qorunan "nəhəng"liyin kökünü milli eposda görür. Lakin N.Cəfərovun mülahizələrindən epos təfəkkürünün Azərbaycan romanında davamlı ənənə kimi meydana çıxmadığı fikri də keçir. Olsun ki, ümumən götürəndə bu, həqiqətən belədir. Ancaq bu, Azərbaycan romanının "Dəli Kür"dən sonrakı inkişafını eposdan kənarda təsəvvür etməyə bizə əsas vermir. Elə "Dəli Kür"ün ən sağlam ənənələri əsasında yazılmış "Qarlı aşırım"ın poetikasında epos təfəkkürünün dayanıqlığı nikbin düşüncələrə əsas verir"* **(səh.40).** Əslində, tədqiqatçı bu qeydləri ilə təkcə romanın yox, dəyişən dünyada eposun **(dastanın)** da yaşarılığına inamını ifadə edir. Professor Salamoğlu Azərbaycan eposunun azərbaycanlı yaddaşında düşüncə tərzinə çevrilərək yaşamasının xronologiyasını dəqiq məntiqə söykənərək təqdim edir: *"Məsələ burasındadır ki, "Qarlı aşırım" romanı ilə Azərbaycan eposunun mükəmməl nümunələri - "Kitabi - Dədə Qorqud", "Koroğlu" arasında kifayət qədər kəsişən xətlər müşahidə etmək mümkündür. Bu kəsişmə həm də ciddi qanunauyğunluğa söykənir. "Koroğlu"nun "yazılı ədəbiyyata, milli-ictimai təfəkkürə müəyyən təsir göstərməsi" (6, 73) elmi ədəbiyyatda vurğulanan məsələdir. Bu məsələlərdən biri də "XX əsrin 30-cu illərindən sonra, ümumiyyətlə, aşıq-dastan sənətinin süqutu" (6, 101) və bununla bağlı "Koroğlu"nun (və ümumiyyətlə, eposun - T.S.) törəmə və inkişaf edib zənginləşmə potensiyası"nın sona varmasıdır. "Bizim zamanın epopeyası (eposu - T.S.) romandır" (Belinski) məntiqini də bura əlavə etsək, XIX əsrdə romanın təbiətində "sosiallaşma"ya artan güclü meyili də nəzərə alsaq, epos mədəniyyətinin öz yerini roman mədəniyyətinə verdiyini, onun yerinə yetirdiyi funksiyanın romanda gerçəkləşdiyini düşünmək olduqca məntiqi səslənir. Fikrimizcə, Azərbaycan romanı eposdan gəlməlidir" qənaətinin əsasında da bu məntiq dayanır"* **(səh.41).** İstər *"Dədə Qorqud Kitabı"*ndakı qəhrəmanların, istərsə də *"Koroğlu"* azmanlarının doğuluşu və yaranışı səbəbləri - Belinskinin dediyi xalqın həyatında xalqın və dövrün təbiətini dəyişən müharibənin əsas şərt olduğunu anlamaq mümkündür. Troya *"İliada"* və *"Odisseya"*nı yaradırsa, Azərbaycan tarixinin min illik çarpışmaları Dədə Qorqudu, Koroğlunu yaradır. Xalq bu obrazları düşüncəsinin əzabları, ruhunun ağrıları ilə dünyaya gətirib və bəlkə də, elə bu səbəbdən də onların yaddaşdan qopub getməsinə, əlaqənin qırılmasına razı ola bilmir. Xalqın ruhunun və varlığının daşıyıcıları olan yazıçı təfəkkürü zaman-zaman bu obrazlara nəfəs verir. Sovet hökumətinin timsalında inqilabın milli varlığa qarşı ölüm-dirim müharibəsi XX əsrin Troyasıdır. *"Qarlı aşırım"*ı yaradan, yaranmasına rəvac verən də elə bu amildir. Hələ üstəlik Abasqulu bəyin *"Qırmızı tabor"*dakı *"Koroğluluq dövrü"*, böyük evin yağmasından sonrakı qayıdış... bütün bunlar yeni zamanın yazılı tarixinə tarixin açdığı qapıdır. Yəni *"Koloğlunun şifahi ənənədəki obrazı öz daxili məzmun və pafosunu bu hadisələrdən (XVI-XIX əsrlərin tarixi hadisələri) götürür. Abasqulu bəyin obrazı da "Qarlı aşırım"a konkret tarixi ha-disələrin şifahi ənənədəki bədii əksindən gəlir"*. Tədqiqatçının bu hökmü bilavasitə bədii fakta söykənişilə bağlıdır. Əsərdəki bir insana şamil edilən toxunulmazlıq statusu, əslində, xalqın - bütövlükdə etnosun ölümsüzlüyünə olan etiqaddır. Əlbəttə, qəhrəmanın cismani ölümü ölümsüzlük şərtini poza bilmir. Əksinə, Abasqulu bəyin ölümü yeni dirilik imkanlarını gerçəkləşdirir. Əsərin tarixlə bağlı əhatə dairəsi minilliklərlə ölçülür. Bu da tədqiqatçının qeyd etdiyi kimi, ilk növbədə roman müəllifinin *"Dədə Qorqud Oğuznaməsi"nin ruhuna köklendiyini və əsərini bu ruhda yazdığını işarələyir"*. Professor Salamoğlu yazıçı və *"Oğuznamə"* əlaqəsini əsərdə çox dəqiq müşahidə etdiyinə görə, *"epos qəhrəmanları ilə roman qəhrəmanları arasındakı varislik əlaqəsini önə çəkir"*. Tədqiqatçı əsər boyu öz həqiqətlərini ən dumanlı, çətin psixoloji məqamlarda belə sözə çevirə, üzə çıxara bilir. Çünki müqayisəyə söykənir. Müxtəlif zamanların mətnləri onun təfsirində asanlıqla müqayisəyə girir, həqiqətlər bu müqayisələrlə daha qabarıq görünür. İsmayıl Şıxlı və Asif Əfəndiyev, Akif Hüseynov, Nizami Cəfərov, Yavuz Axundlu, Xalid Əlimirzəyev və onlarca digər müəlliflərin mülahizələri, tənqidçi rəyləri və eləcə də tarixi qəhrəmanlıq mətnləri tədqiqatçının aydın məntiqi ilə toqquşdurulur, qarşı-qarşıya gətirilir, yeni təfəkkür süzgəcindən keçirilir. Artıq dözüm, güc olan qənaət həqiqəti təmsil edir.

Tədqiqatçının *"müqayisə ehtiyacı"* ifadəsi, zənnimcə, həm də onun kredosuna xidmət edən mənəvi ehtiyacdır. Professorun ilhamla, xüsusi bir duyğu ilə həm ədəbi-tarixi düşüncəyə, həm də epos düşüncəsinə müqayisəli münasibəti az qala bədii mətn gücü ilə yaddaşa hopur: *"Qorqudşünaslar oğuz cəmiyyətinin namus qanunu ilə idarə olunması ideyasını önə çəkirlər. Professor Tofiq Hacıyev yazır: "Oğuzların cəmiyyətində namus mənəvi aidiyyət kimi bütün maddi-fiziki varidatdan yüksəkdir. Oğuzun namus əsası halallıqdır" (2, 420). Bunun ən sadə və təkzibedilməz sübutu kimi Qazan oğlu Uruzla anası arasındakı dialoqu və oğulun anasına dediklərini xatırladan alim yazır: "Bu sözlər Oğuzun namus-şərəf məcəlləsidir. Ana-ata namusu belə gözlənilən yerdə vətən, xalq qeyrəti də ideal qorunar" (2, 420). Epos mətnindən çıxarılan bu nəticə tarixi reallığın ifadəsi kimi səslənir və qeyd edək ki, sovet hakimiyyətinin gəlişinə qədər Azərbaycan cəmiyyətində həyat qanunu kimi öz işləkliyini, gücünü qoruyub saxlayır"*.

Namus etiketdir, təyinedicidir. Türk etnosunda əsas hərəkətverici qüvvədir. Ən qanlı savaşların əsasında belə çox vaxt namus məsələsi dayanır. Bu anlam Tofiq Hacıyevin dediyi, tədqiqatçının təqdir etdiyi kimi, əbədi pozulmaz *"məcəllə"* kimi türkün varlığından keçir. Nəyə desən güzəşt olar, ancaq namusda güzəşt yoxdur. Koroğlu Çənlibelə gəlmək istəyən bir qızın arzusunu, istəyini bilən kimi onu Çənlibelin gəlini hesab edir. Nəyin hesabına olur olsun o qız Çənlibelə gətirilməlidir. Yuxarıda xatırlatdığım *"Od"* romanının aparıcı obrazı Aruz Alp Ərin də güzəştə getmədiyi bir məqam var, o da qardaşının namus məsələsinə biganəliyi, heysiyyətinə laqeyd münasibətidir. Namus həm də gələcəyin sağlam, ləyaqətli insanı deməkdir. Şübhəsiz, bütün bu amilləri nəzərə alan tədqiqatçının problemin düzgün həllini ədəbi-tarixi xronologiyada görməsi təsadüfi deyil: *"Kitabi-Dədə Qorqud"dan üzü bəri minilliklər boyu milli cəmiyyətin namus qanunu ilə idarə olunması bu qanunun artıq qüvvədən düşdüyü dövrdə yaxın tarixin reallığı kimi ilk dəfə İ.Şıxlının "Dəli Kür"ündə sistemli ifadəsini tapır. "Dəli Kür" Oğuz cəmiyyəti qanunlarının XIX əsrə qədər işləkliyini sübut edən əsər kimi qiymətlidir. "Qarlı aşırım" bu qanunların XIX əsrdən sonra da, sovet hökumətinin gəlişinə qədər və onun ilk onilliyində də işləkliyini önə çəkir və bu qanunlarla yaşayanlara edilən təcavüzü bədii təhlilin predmetinə çevirir. Oğuz cəmiyyətindəki kimi, sovet hökumətinə qədərki cəmiyyət qanunlarında da ailə qutsal sayılır. "Düşmən Oğuzun ən kövrək hissinə bələddir və ən qatı qisas variantını" (T.Hacıyev) seçəndə ona ilk zərbəni ailədən vurmaq istəyir. Romanda da belədir. Ailə qəhrəmanın ən həssas yeridir və burada düşmənə heç bir güzəşt yoxdur. Qətiyyən təsadüfi sayıla bilməz ki, sovet hökumətinin gücü qarşısında milli varlıq nümayəndəsi, özü də gücündən və imkanından asılı olmayaraq, nədəsə, hansı məqamdasa güzəştə gedə bilər, ancaq güzəştə getməyi ağlına da gətirmədiyi bir məqam var: ailə namusu"* **(səh.45-46).** Tədqiqatçı bütün əsər boyu nə qədər obrazları müşahidə edirsə, bir o qədər də müəllifi izləyir. Obrazların xarakterini açan məqamlara müəllif münasibətini də unutmur. Tədqiqatçı hiss edir ki, yazıçı etnosun tarixini yaxşı bildiyi kimi, milli varlığı xarakterizə edən əsas daşıyıcı keyfiyyətləri də tarixin fonunda diqqətlə öyrənib. Yazıya gətirmək üçün əsas enerji mənbəyinə çevirib. Bu yerdə müəllif romanın özünə müraciətdən bəhrələnməklə fikrini əsaslandırır.

# yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri

*(Əvvəli 8-ci səhifədə)*

Özü də çox sərrastlıqla: *"Şabanzadənin arvadının Qəmlo ilə qohumluğunu biləndə Talıbov onun qarşısına bircə şərt qoyur: "- Gərək arvadı boşayasan... Düşmən qanındandı, uşaqların əqidəsi düz olmaz!" Sinfi düşmənlə qohumluqla bağlı daşıdığı "günah"ın yuyulması üçün Şabanzadə hərbi tribunala verilib güllələnməyi də, lap elə Talıbovun onu güllələyə bilməsini də mümkün sayır və bu "qanun" daxilində cəzasını çəkməyə hazırdır. Lakin arvadının boşanması müzakirə obyekti ola bilməz. O, Talıbova qəti cavab verir: "- Yox, Talıbov, mən onu boşayan deyiləm". Şabanzadə və Talıbov inqilab uğrunda mübarizə qəhrəmanlarıdır. Lakin qarşılaşmada Talıbov inqilabın, Şabanzadə isə milli varlığın mövqeyindən çıxış edir. Namus qanununun pozulmazlığı bu məqamda siyasi əqidəni yenir, milli varlıq öz tarixi xarakterinə qayıdır. Bu "qayıtma" hesabına da inqilab qanununa qarşı çıxmağa özündə güc tapır"* **(səh.46).** Bununla tədqiqatçı qəti fikrə gəlir; Şabanzadə və Talıbov arasındakı *"boşanma"* məsələsindəki fikir ayrılığı göstərir ki, kim namusludursa, o da güclüdür və yenilməzdir. Bu həm də yazıçının mətnlə diktə etdiyi həqiqətdir.

Təyyar Salamoğlu sanki romanın bütün varlığını, ən kiçik detalını belə süzgəcdən keçirir. O, əsərə canlı, ruh daşıyıcısı kimi baxır. Ona görə də hər bir detalla asanlıqla dil tapır. Bəlkə də, Şabanzadə ilə Talıbovun arasındakı ailəyə inqilabi münasibət məsələsi diqqəti çəkməzdi. Ancaq tədqiqatçı bu qarşılaşmada daha ciddi bir problemin olduğunu görür. Şabanzadə və Talıbov - hər ikisi inqilabçı olsalar da tədqiqatçı göstərir ki, ailə məsələsində Şabanzadə milli varlığı təmsil edir. Milli varlıq isə namus qanununun pozulmazlığına tapınır: *"Namus qanununun pozulmazlığı bu məqamda siyasi əqidəni yenir, milli varlıq öz tarixi xarakterinə qayıdır. Bu, "qayıtma" hesabına da inqilab qanununa qarşı çıxmağa özündə güc tapır"* **(səh.47).** Beləliklə, tədqiqatçı əsəri izlədikcə *"milli həyat qanunlarının yaşamaq, siyasi rejimə müqavimət göstərmək gücünü əks etdirən"* detalları nəzəri təhlilin canı, varlığı kimi qabardır. Tədqiqatçı Abasqulu bəyin timsalında eposun yaşayıb sovet dövrünəcən gəlib çıxmış qəhrəmanını, əgər belə demək mümkünsə, Beyrəyi görür: *"XX əsrin tarixi reallıqlarını obrazlaşdıran roman qəhrəmanları öz səciyyələri etibarilə eposdan gəlir və onlara məxsus igidlik, ərənlik keyfiyyətlərinin daşıyıcısı kimi çıxış edirlər. Bu mənada Abbasqulu bəy obrazı xüsusi fərqlənir, onun xarakteri və taleyi ilə Beyrək obrazının xarakteri və taleyi arasında kifayət qədər kəsişən məqamlar müşahidə etmək mümkündür. Professor T.Hacıyev yazır: "Beyrək bir igid kimi dastanın üçüncü boyundan məlumdur. Ancaq bu boya qədər (sonuncu boy nəzərdə tutulur - T.S.) o, ən çox qılınc qəhrəmanı kimi öyünür. Burada isə mənəvi abidəyə çevrilir" (2,450). Beyrəyin eposdakı tale yolunu əks etdirən bir fikri heç bir redaktəsiz Abasqulu bəyə aid etmək olar. Beyrəyin taleyi kimi, Abasqulu bəyin də taleyində "xəyanət" motivi həlledici rol oynayır. Beyrək Oğuz cəmiyyətindəki nifaqın qurbanı olduğu kimi, Abasqulu bəyin də ölümünə el-oba camaatı arasına salınan nifaq səbəb olur. Fərq yalnız bundadır ki, Oğuz cəmiyyətindəki nifaqın kökündə daxili ziddiyyətlər dayanırsa, romanda xalqı təmsil edən qüvvələrin ikiyə parçalanmasının motivi "kənar qüvvələr"dən güc alır".* Alimin şərh vermədən dırnaqla ayırdığı *"kənar qüvvələr"* ifadəsi Azərbaycan tarixi üçün məlum həqiqətləri özündə ehtiva edir. Yəni tarixən işğalçılar işğal etdikləri ölkənin əhalisini parçalamaqla, bir-birinə qarşı qoymaqla gücdən salır. Bu, həm də onların işğal etdikləri ərazini idarə üsuludur. Bu motivin bədii əksi Cəfər Cabbarlının *"Od gəlini"* əsərində kifayət qədər dolğunluğu ilə ədəbi yaddaşa köçürülüb. Elxan Biləgənli ilə yerli feodallar arasındakı intiriqanın - münaqişənin səbəbi ərəb işğalçılarıdır. Bu motiv Ənvər Məmmədxanlının *"Babək"* romanında da yaddaşa gətirilir. Sasanilər də bu yoldan çox bəhrələniblər. İran fitiuatı da Cənubi Azərbaycanı elə bu üsulla öz cəngində saxlayır. Tədqiqatın müasir düşüncə üçün praktik, real əhəmiyyəti də bundadır. Tədqiqatda Beyrək və Abasqulu bəy obrazlarının mənəvi doğmalıq və varislik bağları da bu dərin siyasi motivdən güc alaraq yetərincə açıqlanır. Bu açıqlamalar bəzən üstüörtülü, bəzən də qabarıq təqdim edilsə də, bütün hallarda diqqətli oxucunun nəzərlərini çəkir: *"Həm Beyrəyin, həm Abasqulu bəyin ölümlə nəticələnən gedişlərinin yerinə yetirmək istədikləri barışdırıcılıq missiyası ilə bağlılığı da diqqətdən yayınmır. Nəzərə almaq lazım gəlir ki, barışdırıcılıq missiyasının Beyrəyin və Abasqulu bəyin izərinə qoyulması onların yaşadıqları cəmiyyətdə böyük nüfuz sahibi olmalarının göstəricisidir. Bu nüfuzun həm eposda, həm də romanda qabarıq görünən mənbəyi onların cəmiyyətdə qorxubilməz igid, qəhrəman statusunda çıxış etməsidir"* **(səh.47-48).** Tədqiqatçı demək istəyir ki, xalq onların timsalında özünü görür. Onların ölümləri xalqın zaman-zaman düçar olduğu faciədir.

İç Oğuz və Dış Oğuz münasibətləri, Abasqulu bəy və Kərbəlayı İsmayılın düşərgələri, eləcə də epos və roman qəhrəmanları bir-birilə müqayisəyə sanki can atır. Müəllif əsərin bu hissəsini böyük ilhamla qələmə alır. Yazının dili o qədər axıcı və rəvandır ki, oxucu üçün eposun özü, yaxud roman qədər maraqla mütaliəyə gəlir. Araşdırmada özünə yer tapır ki, Aruzun Beyrəyi öldürmə motivi ilə Kərbəlayinin Abasqulu bəyin ölümünə verdiyi fitvanın motivi eynidir. Hər ikisində igidlik qanunu pozulur. Ancaq burada epos qanunu pozanı bağışlamadığı kimi, romanda da milli həyat qanunu Kərbəlayını bağışlamır.

Həm eposdakı, həm də romandakı təsirli səhnələr artıq ədəbiyyat tariximizdə kifayət qədər yer alıb. Ona görə də, tədqiqatçının ruhundan keçib araşdırmanın da əsas məğzində təzahür edir. Demək, professor Tofiq Hacıyevə təsadüfi müraciət edilmir: *"Professor T.Hacıyev yazır: "Beyrəyin ölümü dünya ədəbiyyatındakı ən təsirli ölümlərdən biridir. Bu ölçü ilə Beyrək dünyada sədaqət etiketi, mərdlik örnəyi olur. Təpəgöz alp ərənləri öldürür, təəssüflənirsən, ancaq Beyrəyin ölümünə ağlayırsan. Div ürəkli Oğuz bəyləri ağlaşırlar, alplarbaşı, bəylərbəyi Qazan əlinə dəsmal alıb hönkür-hönkür ağlayır" (2, 451). Ölümü haqq işi sayan və həmişə ölümlə üz-üzə duran, hətta bunu həyat tərzi kimi qəbul edən Oğuz eli, Oğuz cəngavərləri Beyrəyin ölümündən niyə bu qədər sarsılırlar, bu ölüm niyə onları bu qədər ağrıdır? İlk növbədə, ona görə ki, Boz ayğırlı igid on altı illik əsirlik həyatından yenicə qayıtmış və bu qayıdışı ilə Oğuz elinə böyük bir sevinc bəxş etmişdi. Bir günün, bir anın içində bu sonsuz sevinci ölüm xəbərinin əvəz etməsini qəbul etməyə Oğuz cəmiyyəti psixoloji cəhətdən qətiyyən hazır deyildi. İkincisi, Beyrəyə onun layiq olmadığı bir ölüm qismət olmuşdu. Beyrək ömrünü əsl Oğuz igidi kimi yaşamışdı, amma mənasız ölümlə üzləşmişdi. "Ər kişilərin hönkürtüsü" (T.Hacıyev) daha çox ölümün motivindən qidalanırdı. "Qarlı aşırım"da Abasqulu bəyin də ölümü eyni yanğı ilə qarşılanır. Saysız-hesabsız döyüşlərdən sağ-salamat çıxmış, burnu da qanamamış Abasqulu bəy xəyanətin qurbanı olmuş, ucuz ölümə tuş gəlmişdi. Elə bir ölümə tuş gəlmişdi ki, ölümdən qorxmağı ağlına da gətirməyən bu igid bütün ömrü boyu məhz bu cür ölümdən qorxmuşdu. Müəllif təhkiyəsində oxuyuruq: "O, ölüm haqqında fikirləşməzdi. Ancaq hər dəfə insanların ölümünü görəndə ehtiyat etdiyi bir məsələ yadına düşərdi: "ucuz ölüm". Abasqulu bəyin ölümdən qorxmadığını el-oba camaatı dəqiq bilirdi. İştirakçısı*



*olduğu çoxsaylı döyüşlərdə, xüsusən el-oba camaatının daşnaklarla vuruşduğu iki ildə o qədər nağd ölümdən sağ-salamat çıxmışdı ki, adamlar onun ölümsüzlüyünə iman gətirmişdilər. Müqayisəsiz cəsurluğu, ölümə hər vaxt meydan oxuması Məhərrəmin onun qatilinə tuşlanan sözlərində heç bir mübahisə doğurmayan həqiqət kimi səslənir: "Elə bilirsən ki, ondan igidsən? Heç bilirsən, o ordeni necə almışdı? Bilmirsən. Kişiliklə!.. Bu atını pulemyotun üstünə çapırdı. Yoxsa, kol dalına girmirdi".*

*"Atını pulemyotun üstünə çapan", iki illik vuruşmalardan sonra bütün eli daşnakların mühasirəsindən sağ-salamat çıxaran bir igidin silahsız-tüfəngsiz bir vəziyyətdə namərd gülləsi ilə öldürülməsi inanılmaz və dəhşətli idi. Eyni ilə Beyrəyin ölümü kimi. Elmi ədəbiyyatda oxuyuruq: "Heç demə, ölümdən ölümə, matəmdən matəmə fərq varmış... Bədii ədəbiyyatda belə təsirdə igid ölümünü yalnız bayatılarda görmüşük. Burada isə ən qəmli bayatıdakı ölümün faciəsi gözümüzün qabağında baş verir. Dostluğu və çörəyi həyatından yüksək tutan bir igidin, ordular dağıdan bir qəhrəmanın əl qaldırmadan, müqavimət göstərmədən bir hiyləgər qoca qurdun caynağında öldüyünü görürük. Bu, bayatıdakından daha yanıqlı bir ölümdür" (2,450).*

*Bu mülahizələr hansı əsərin qəhrəmanı haqqında söylənmişdir? Əgər desək ki, bu sözlər F.Kərimzadənin "Qarlı aşırım" romanındakı Abasqulu bəyi nəzərdə tutur, yəqin ki, romanı oxumuş istənilən oxucu, lap elə professional tədqiqatçı belə buna şübhə etməyəcək. Çünki qəhrəmanın ölümündən doğan bu təəssürat Abasqulu bəyin faciəsini riyazi dəqiqliklə əks etdirir. Ancaq bu sözlər akademik T.Hacıyevə məxsusdur və "Kitabi-Dədə Qorqud"dakı Beyrəyin ölüm səhnəsini nəzərdə tutur. Bir-birindən min illərlə uzaq tarixin estetik ifadəsi kimi yaranan əsərlərdə "ölüm" hadisəsinə etik-psixoloji münasibətdəki yaxınlıq nədən doğur? Bu, etnosun tarixi xarakterinin bizə yaxın tarixin insanının varlığında yaşamasının əlaməti deyilmi? Yaxud xəyanətə uğramış qəhrəmanın ölüm səhnəsinin çağdaş romandakı səciyyəsi milli qəhrəmanın epos formullarına sədaqətini əks etdirmirmi? Səhnələr arasındakı eyniyyətə bərabər yaxınlıq roman müəllifinin hadisələrə epos təfəkkürü ilə müdaxiləsi haqqında düşünməyə əsas vermirmi? Şübhəsiz, ancaq roman "yeni dövrün eposu" funksiyasında çıxış etsə də, onu təkrarlamağı nəzərdə tutmur. Öz dövrünün "epos"u kimi yaranmaqla bərabər, eposun janr təbiətindən gələnləri əxz etməklə bərabər, ora özünün təbiətindən gələn əlamətdar keyfiyyətlər qatır. Roman bu keyfiyyət özünəməxsusluğu ilə zamanın eposuna çevrilir. "Kitabi-Dədə Qorqud" aşkar göstərir ki, burada tarixin ən dərin qatlarını işarələyən kifayət qədər zəngin hadisə var, lakin hadisənin təfsilatı yoxdur. Bu mənada, roman eposdan gələn tarixi xarakteri sosial tərəfi ilə bərabər, psixoloji dərinliyində açmağa hesablanır"* **(səh.50, 51, 52).** Tədqiqatı izləməyi bir anlığa dayanıb soruşsaydım ki, bu əsərin real həyati (elmi dəyərini aşağılamadan) dəyəri nədir? Özümə ünvanlanmış bu suala heç bir tərəddüdə yol vermədən cavab verərdim: Həyatın nəinki üzünü, lap elə daxili aləmini, varlığını yumaq, yaşamı bir az da yaşarı etmək, dünyanı, həyatı gözəlləşdirməklə sevdirmək, insanları bir-birini anlamağa çağırmaq, dəyərləri hifz etmək... bütün bunlar azdırmı? Əlbəttə, az deyil. Belə tədqiqatların məqsədi vətəni namus kimi qavrayıb qorumaq, idealı milli ruhun yaddaşdakı gücü bilmək... Vətənin tarixi taleyinə cavabdehlik missiyası yaradır. Xüsusilə, cəbhədə düşmənlə üz-üzə dayanan əsgərlərimizin ruhunun, varlığının səfərbərliyi üçün eposa müraciət, romanın yaşarılıq verdiyi qəhrəmanın epos qəhrəmanı ilə müqayisəyə çəkilməsi çox vacibdir və günümüzlə səsləşir. Xüsusilə, silaha münasibət, silahın qəhrəmanın əsas göstəricilərindən olması kimi amillər - tədqiqatın içindən özünü yaddaşda saxlayacaq, varlıqda qoruyacaq gücdə keçir.

Heç bir postmodern çevrilməni və şərtiliyi qəbul etmədən deyirəm; bu günün gənc nəslinə tədqiqatın bu xarakteri, eposun və romanın bu cür birbaşa şərhi, keçmişlə müasir zamanın bağları və əlaqələrini göstərmək təsirsiz ötüşmür. Bu gün cəbhədə (29.04.2016; saat 4.00) əsgərlərimiz şəhid olub. Tədqiqatın qəhrəmanlıq motivlərini tərənnüm edən səhifələrini çevirdikcə mənə elə gəlir ki, yüzlərlə, minlərlə tarixə çoxdan qovuşmuş oğullar dirilib düşmən qabağına yeriyir. Öndə isə Bamsı Beyrək və Abasqulu bəydir. Oğuz qəhrəmanları və Qırmızı tabordur...Və heç şübhəsiz, Kərbəlayı İsmayıl da bu yürüşdən qıraqda qala bilməz. Çünki bu oda qalanan həm də onun Vətənidir.

Bəlkə də artıq təkrarlıqla qeyd etdiyimiz kimi, tədqiqatın praktik, həyati əhəmiyyəti elə bundadır.

...Kişiliyin bir cəhəti də öz səhvini başa düşüb elədiyinin, xətanın ağrısını yaşamaqdır. Kimsənin bilib-bilmədiyinin fərqinə varmadan bu ağrı insanı daxildən böyüdür. Kərbəlayının zaman keçdikcə dirilişi və mənəvi bəraəti elə bu başadüşmənin ağrısı ilə bağlıdır. Minilliklərin o tayındakı Beyrək ağrısı, minilliklərin bu tayındakı Abasqulu bəy ağrısı bir-birinin davamıdır. Ona görə ki, eyni etnosun - taleyindən söhbət gedir. Qədim Oğuzla, müasir Oğuz romanda birləşdiyi, bir-bi-rinə qovuşduğu kimi tədqiqatda da ayrılmazdır.

Təyyar Salamoğlunun məntiqində eposdan romana bir çox istiqamətlərin - fikiraltı düşüncənin yolları görünür. Bu yolları biz obrazların təbiətində, obrazı qabarıq göstərmək üçün istifadə olunan təbiət təsvirlərindən və vasitə kimi istifadə olunan digər canlı varlıqların təxəyyül prosesində iştirakından görürük. Tədqiqatçı yeri gəldikcə özünəqədərki fikir və düşüncə müəllifləri ilə mübahisəyə də girir, ciddi polemikada öz mövqeyini müdafiə edir. Və bu zaman orijinal, daha çox diqqətdən kənarda qalmış məsələləri, xüsusi elementləri də diqqətə çəkir: *"Beyrəyin atının baş vermiş müsibətə münasibəti".* Doğru olaraq yazır ki, tədqiqatlarda *"at-igid, at-qəhrəman əlaqələri daha çox igidin öz atına münasibəti şəklində araşdırılmışdır".*

Ancaq professor atın öz sahibinə, münasibətinə də xüsusi diqqət ayırır: *"Epos düşüncəsində qəhrəmanın atı onun özü ilə eyni taleyi yaşayır. Qəhrəmanın bütün yaşantıları - sevinci və ağrıları atın da taleyindən keçir. Eposda "öz adları ilə tanınan canlı personaj" (F.Zeynalov, S.Əlizadə) rolunda çıxış edən at sədaqətli və fədakardır. Beyrək on altı illik dustaq həyatı yaşayanda onun atı dustaqxana ətrafında dolaşıb, onun keşiyini çəkir. Bir növ, onunla birlikdə dustaq həyatı yaşayır.*

*(Davamı var)*